

# *Daxili Nəzarət Sisteminin fəaliyyətinin və formalaşmasının əsas postulatları, prinsip və tələbləri*

***Əsas tələblər.***

DNS-nin formalaşmasında əsas tələblər əsas prisiplərin mövqeyini açıqlayır və inkişaf etdirir. Bu tələblərə daxildir:

**1. İqtisadi subyektlərdə fəaliyyət göstərən hər bir daxili nəzarət subyektlərinin nəzarət altında olması tələbi.**

Bir subyekt tərəfindən nəzarət funksiyalarının aparılması keyfiyyətliliyin qorunması üçün digər nəzarət subyektinin nəzarəti altında olmalıdır. Maraqların münaqişəsi hallarının qarşısının alınması məqsədi ilə iqtisadi subyektlərin ali idarəetmə orqanlarının fəaliyyəti autsorsinq üsulu (autsorsinq - iki təşkilat arasında, birinin digərinə müəyyən iş prosesi və ya funksiyaları ilə bağlı xidmət göstərilməsi məqsədi ilə saziş bağlanılmasıdır) ilə qiymətləndirilir. Ikinci dərəcəli top-menecmentin və idarəetmə sistemində orta və aşağı pillənin rəhbərlərinin fəaliyyəti isə DNS-nin köməyi ilə qiymətləndirilir.

**2. Maraqların məhdudlaşdırılması haqqında tələblər.**

Normativ sənədlər əsasında işçi tərəfindən yaranan istənilən mənfi yayınmalar, onu iqtisadi cəhətdən əlverişsiz vəziyyətdə göstərə bilər. Bu şərt mənfi yayınmaların baş verilməməsi və ya yaranma səbəblərini mümkün qədər tez aradan qaldırılması üçün işçilərdə stimul yaradır.

**3. Daxili nəzarət obyektlərin hüquqlarının bir şəxsin əlində cəmləşməsinə imkan verilməməsi.**

İnhisarçılıq nəzarətdə qeyrimümkündür. Bu tələbə əməl edilməzsə, hesabat materiallarında yoxlama nəticələrinin qeyri-obyektiv göstərilməsinə şərait yaranar. DNS-də bir-birindən asılı olmayan müxtəlif

nəzarət subyektləri fəaliyyət göstərə bilər. Lakin onların peşəkar fəaliyyətinin əlaqələndirilməsi (məsələn, İdarə Heyətinin Audit üzrə Komitəsi tərəfindən) vacibdir.

**4. İqtisadi subyekt rəhbərlərinin maraqlandırılması tələbi.**

DNS-nin effektiv fəaliyyəti iqtisadi subyektin top-menecmenti və sahibkarların nümayəndələrinin bu fəaliyyətdə iştirakı və maraqlı olmasından asılıdır.

**5. Nəzarət subyektlərinin peşəkar, ədalətli və dürüst olması tələbi.**

Daxili nəzarət ilə məşğul olan iqtisadi subyekt işçiləri bu xüsusiyyətlərə malik olmadıqda, DNS-nin ideal təşkili belə effektiv fəaliyyətə zəmin yaratmır.

**6. DNS-nin işində tətbiq edilən metodika və proqramların yayarlılıq tələbi.**

Bu metodika və proqramlar məqsədəuyğun və səmərəli olmalıdırlar. Onların yoxlama prosesinə tətbiq edilməsi işçilərin vəzifə öhdəliklərinin yerinə yetirilməsindən mümkün qədər az ayırmalıdır.

**7. Vahid məsuliyyətliliyin tələbi.**

Bir nəzarət funksiyasının məsuliyyətini bir neçə subyekt daşımalı deyil. Bu zaman əlavə güc və vəsaitin sərfi qaçılmazdır.

**8. Potensional və funksional əvəzetmə tələbi.**

Müvəqqəti ayrıca nəzarət subyektinin yoxluğu (məsələn, məzuniyyət ilə bağlı) nəzarət prosedurunun dayandırılmasına və ya aparılmasının çətinləşdirilməsinə səbəb olmalı deyil. Bu amilin aradan qaldırılması məqsədi ilə hər bir nəzarət subyekti ondan yüksək dərəcəli ya bir, ya iki eyni dərəcəli subyektin işini lazımı səviyyədə aparmaq bacarığına malik olmasını təmin etmək vacibdir.

**9. Reqlamintasiya tələbi.**

DNS-nin effektiv fəaliyyəti birbaşa reqlament (qayda və ya standartların) varlığı, keyfiyyəti və təsdiqlənmə səviyyəsindən və eləcə də nəzarət subyektləri tərəfindən dəqiqliklə tətbiq edilməsindən asılıdır.

**10. Əlaqələndirmə və qarşılıqlı fəaliyyət tələbi.**

DNS iqtisadi subyektin xidmət və şöbələrinin qarşılıqlı əlaqəsi əsasında fəaliyyət göstərməlidir. Buna iqtisadi subyekt rəhbərliyi və struktur bölmələrinin nəzarət fəaliyyətini reqlamentləşdirən (qaydaya salan) normativ sənədlərin kompleks şəkildə hazırlanması yolu ilə nail olmaq olar.



## *Daxili Nəzarət Sisteminin əsas xüsusiyyəti və forması, onların tətbiqi sahəsi*

DNS-nin təşkilinin əsas formaları kimi aşağıdakıları göstərmək olar:

1. Daxili Audit Sistemi (DAS);
2. Daxili Nəzarətin struktur və funksional forması;
3. Təftiş və Nəzatər Xidməti (TNX);
4. Təftiş Komitəsi (TK);

5. Ko-sorsinq;
6. Autosorsinq.

Qeyd etmək lazımdır ki, bu formalar iqtisadi subyektlərdə müxtəlif kombinasiyalarda istifadə edilə bilər. Onların mənfi və müsbət tərəflərinin təhlilini aparaq.

***Daxili Audit Sistemi.***

Daxili Audit Sistemi yaradılmasının müsbət tərəfləri:

- DAS-nin işçi heyəti iqtisadi subyektin və onun struktur bölmələri, filiallarının daxili mədəniyyəti və xüsusiyyəti ilə tanışdır;
- Daxili auditorların bacarıq və təcrübəsi iqtisadi subyektin daxilində qalır.

Daxili Audit Sisteminin yaradılmasının mənfi tərəfi DAS-nin formalaşması və fəaliyyətinə xeyli miqdarda xərc çəkilməsidir.

Yuxarıda göstərilənlərə əsaslanaraq DAS iri və orta fəaliyyətlə məşğul olan iqtisadi subyektlərdə yaradılır. Bu zaman iqtisadi subyektlər aşağıda sadalanan şərtlərə malik olmalıdır:

- sahibkar və ali rəhbərlik, hər bir rəhbərliyin fəaliyyəti haqqında düzgün məlumat əldə etməyə və fəaliyyətin düzgün qiymətləndirilməsinə çalışmalıdır;
- strukturun mürəkkəbliyi;
- filial və törəmə şirkətlərin mövcudluğu;
- fəaliyyət növünün müxtəlifliyi.

DAS-nin effektiv fəaliyyəti onların, iqtisadi subyektin idarə etmə orqanlarına tabe olmasıdır. Beynəlxalq standartlara əsasən, DAS sahibkarların nümayəndələrinə və ya idarəetmə orqanlarının icra etmə səlahiyyətli nümayədlərinə tabe ola bilər. Bu tabelilik sistemi yalnız maraqların münaqişəsi hallarının yaranması kimi riskləri çıxmaq şərti ilə effektiv sayıla bilər.

***Daxili nəzarətin struktur və funksional forması.***

Daxili nəzarətin struktur və funksional formasının müsbət tərəfi onun DAS ilə müqayisədə daha az xərc tələb etməsidir.

Daxili nəzarətin struktur və funksional formasının mənfi tərəfi onun yönəldilmiş planlar və yoxlama proqramları ilə bağlı risklərin formalaşması mərhələsində, eləcə də aşkar edilmiş çatışmazlıqların aradan qaldırılmasına nəzarətin təşkilində lazımi qədər effektiv olmamasıdır.

Bu forma bir dəfə və kosorsinq, normativ sənədlər toplusu, yoxlama aparılması sahəsində biznes prosesləri rəhbərləri ilə struktur vahidlərinin qarşılıqlı əlaqələrinin reqlamentləşdirilməsi, nəticələrin qeydiyyatı, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə tövsiyələrin hazırlanması və nəzarətindən istifadə edilərək hazırlanır. Təcrübəyə əsasən, orta və kiçik fəaliyyətlə məşğul olan iqtisadi subyektlərdə istifadə edilir.

***Daxili Audit Sistemi ilə daxili nəzarətin struktur və funksional formasının kombinasiyası.***

Təcrübə bu birləşmənin prespektivli olmasını göstərir. DNS-nin yüksək səviyyəli effektivliyini təmin edilməsində xərclərə qənaət baxımından əlverişlidir. Belə ki, DAS nəzarət işini hazırlayan, təşkil edən və üsulunu müəyyənləşdirən və əsasən daxili nəzarət gücünə reallaşdıran rolunu oynayır. Bu zaman DAS aşağıda sadalanan təşkilati funksiyaları həyata keçirir:

- yoxlama obyektinin seçilməsi və onun ilkin tədqiq edilməsi;
- yoxlama aparılmasının ümumi plan və proqramlarının hazırlanması;
- daxili nəzarət və daxili auditorlarından ibarət yoxlama heyətinin formalaşması;
- sifarişçi ilə yoxlama məqsəd və istiqamətlərinin razılaşdırılması;
- yoxlamanın nəticələri əsasında yekun materialların hazırlanması;
- aşkarlanmış yayınmaların aradan qaldırılması üzrə nəzarət planının hazırlanması, bu nəzarətin aparılmasının yoxlanılması və sifarişçinin məlumatlandırılması.

Təcrübə göstərir ki, bu forma həm orta, həm də iri fəaliyyət ilə məşğul olan iqtisadi subyektlərə tətbiq edilə bilər.

***Tərcümə: Aidə Bağırova***